BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2013*

# İLAHİYYAT

UOT 28 - İSLAM

## İSLAMDA "AİLƏ" ANLAMI VƏ ONUN HÜQUQİ MAHİYYƏTİ

**S.H.MİRZƏYEVA**
***Bakı Dövlət Universiteti***
***mirzoyeva.76@mail.ru***

*İnsan övladının doğulduğu, içində böyüyüb boya-başa çatdığı və həyata qoşulduğu ən kiçik sosial birlik forması olan ailə eyni zamanda, kamil bir əxlaqi dəyərlər və hüquqi normalar sistemini əhatə edir. Cəmiyyətin rəhbər tutduğu bütün hüquqi, əxlaqi və mənəvi dəyərlər hər şeydən əvvəl öz başlanğıcını ailə təsisatından götürür. Hüquq sisteminin ən başlıca vəzifəsinin cəmiyyətin daxili həyatının təmin edilməsi olduğunu nəzərə alsaq, cəmiyyətin özəyi olan ailənin bu prosesdə oynadığı rol özünü bütün aydınlığı ilə nümayiş etdirər. İslam ailə hüququ mövzusu özünün əsil qaynaqlarında "nikah və talaq", daha sonralar ", son əsrlərdə isə "əhval şəxsiyyə" və "əhkam əl-üsra" adları ilə geniş ictimaiyyətə təqdim edilmiş və sistemləşdirilmişdir.*

*İslam ailə təsisatına təkcə cəmiyyətin ən kiçik birlik şəkli kimi deyil, həm də bu birliyi tənzimləyən hüquqi hökmlər üzərində qərar tutan və ərlə arvadın və uşaqların hər birinin öhdəsinə məsuliyyətlər qoyan bir ictimai qurum kimi yanaşır. Müsəlman ailəsinin üzvləri öz aralarında mürəkkəb və çoxsaylı hüquq və öhdəliklər məcmusu ilə bağlıdır. Bu hüquq və öhdəliklər sosial və maddi xarakter daşıyır. Lakin onlar ümumilikdə ailə üzvlərinin və cəmiyyətin rifahına və çiçəklənməsinə, cəmiyyətdə yüksək əxlaqi-mənəvi dəyərlərin hökm sürməsinə və son nəhayətdə, insanların səadətinə yönəlmişdir.*

**Açar sözlər:** ailə, islam, hüquq

İnsan övladının doğulduğu, içində böyüyüb boya-başa çatdığı və həyata qoşulduğu ən kiçik sosial birlik forması olan ailə eyni zamanda, kamil bir əxlaqi dəyərlər və hüquqi normalar sistemini əhatə edir. Cəmiyyətin rəhbər tutduğu bütün hüquqi, əxlaqi və mənəvi dəyərlər hər şeydən əvvəl öz başlanğıcını ailə təsisatından götürür. Hüquq sisteminin ən başlıca vəzifəsinin cəmiyyətin daxili həyatının təmin edilməsi olduğunu nəzərə alsaq, cəmiyyətin özəyi olan ailənin bu prosesdə oynadığı rol özünü bütün aydınlığı ilə nümayiş etdirər. İslam ailə hüququ mövzusu özünün əsil qaynaqlarında "nikah va talaq", daha sonralar "münakəhat və müfarəqat", son əsrlərdə isə "əhval şəxsiyyə" və

"əhkam əl-üsra" adları ilə geniş ictimaiyyətə təqdim edilmiş və sistemləşdirilmişdir.

Qısaca, ata, ana və uşaqlardan ibarət olan bir kiçicik insan toplusu kimi görünən ailə əslində, cəmiyyətin həyatında əvəzedilməz rol oynayır. İnsan övladı yer üzünə ayaq basdığı andan etibarən birgə həyata can atmışdır. Qurani-Kərim yer üzündə yaşayan insanların ulu babası olan Adəmin öz zövcəsi və uşaqları ilə bərabər bir ailə yuvası qurduğunu xəbər verir (8; Bəqərə, 35; Əraf, 19; Taha 17-119). Fərdin xoşbəxtliyini təmin edən, İnsan fərdi cəmiyyətlə bağlayan, onun fəaliyyətini cəmiyyətə xidmət etməyə yönəldən ailənin bu unikal rolunu Qurani-Kərim aydın şəkildə nəzərə çarpdırır: "Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda dostluq, sevgi, məhəbbət yaratması da Onun qüdrət əlamətlərindəndir" (8; Rum 21). Deməli, ailə insanın can rahatlığı, xatircəmlik və arxayınlıq tapdığı bir yuvadır. "Ailə tərbiyəsi", "ailə qorxusu", "ailə şərəfi" kimi tez-tez işlənən sözlər ailə amilinin necə mühüm əhəmiyyət daşıdığını bir daha göstərir. Həm Quran ayələrindən, həm də əməli həyatdan anlaşılan digər mühüm həqiqət ailənin sadəcə nəsli davam etdirmək vasitəsi olmadığıdır. Ailə bu mühüm amillərlə bərabər daha dərin mahiyyət daşıyır. O yer üzünü gözəlləşdirərək abadlaşdırmaq vasitəsidir (iimar al-arz). İslam hüquq sistemi cəmiyyətin ictimai əsaslarını zəifldə biləcək problemləri hələ onlar təhlükəli xarakter almamış, ailə səviyyəsində ikən islam ailə hüququ vasitəsilə aradan qaldırmağa çalışmış, beləliklə, "islam ailə hüququ" anlayışı meydana gəlmişdir. Son iki əsrdə islam ailə hüququ müsəlman cəmiyyətində özünün itirmiş olduğu aparıcı rolunu bərpa etməyə başlamışdır. İslam hüquqçuları ailənin həm özünün aparıcı ünsürlərini, həm də onun cəmiyyətlə əlaqələrini hərtərəfli şakildə tədqiq etmiş və islam ailə hüququnun hökmlərini təsbit etdirmişlər.

Müsəlmanların nəzərində ailənin əsaslandığı bu özünəməxsus incəlik nikaha qismən "ibadət" anlamı verməkdir. Yəni ailə təsisatının qurulmasının ilk hüquqi addımı və qanunvericilik vasitəsi kimi nikah, Allaha yaxınlaşmaq mənası daşıyan ibadət mahiyyəti kəsb etməkdədir. Hənəfi hüquqçuları Əd-Dəbbusi (v. 430-1039) və İbn Hümam (v. 861-1457) "Nikah ibadətlərə daha yaxındır. Belə ki, evlənmək özünü ibadətə həsr etmək məqsədilə subay qalmaqdan daha üstündür" deyərkən bu əlaqəni nəzərdə tutmuşlar (19,3/184).

Allahın Rəsulu isə özünün vida xütbəsində kişilərə müraciət edərək demişdir: "Qadınlarınıza münasibətdə Allahdan qorxun. Siz onları Allahın bir əmanəti kimi almışsınız və onlarla bərabərlik Allahın kəlməsi (nikah) ilə sizə halal olub" (3, 56).

Ensiklopedik lüğətlər adətən ailəni "Ata-ana və uşaqlardan ibarət bir birlik forması," "Evlilik və qan birliyinə əsaslanan, ər-arvad və övladlar arasında təbii əlaqələrin gerçəkləşdiyi ən kiçik birlik" kimi səciyyələndirməklə kifayətlənir. Lakin ailəni dəyərləndirən üstün cəhətlər arasında ən faydalısı və "ailəni həqiqətən ailə edəni" onun insanların təbii ehtiyaclarına cavab verməsi, onun insana "isti yuva" bəxş etməsidir. Əsl müsəlman ailəsinin özülü can

rahatlığı, xatircəmlik, qarşılıqlı sevgi və rəhmət üzərində qurulmuşdur. Müsəlman ailəsinin hər bir üzvü digərlərinə əziyyət verməməyə, onların işini yüngülləşdirməyə, onun ehtiyaclarını şəriət qanunları daxilində aradan qaldırmağa, onların qəlbini qırmamağa çalışır. Müsəlman ailəsində hər kəsin öz yeri, öz məqamı vardır. Quran ailə daxilində ata və anaların, nənə və babaların məqamını yüksək tutmağı əmr edir: "Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşkün çağına yetərsə, onlara "uf" belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış! (8, İsra 23). İslam ailəsinin digər bir özəlliyi bu yuvaya mənsub olan hər kəsin üzərinə düşən vəzifələri ibadətin bir növü kimi qəbul edərək yerinə yetirməsidir. Ərlə arvad arasında baş qaldıra biləcək bəzi anlaşılmazlıqlar buna mane olmamalıdır: "Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir! (Qadınlar) açıq-aşkar pis bir iş görməyincə, özlərinə verdiyiniz şeylərin (mehrin) bir hissəsini geri qaytarmaq məqsədilə onlara əziyyət verməyin" (8, Nisa,19).

Müsəlman ailəsinin ailə çərçivəsindən kənarda təəssübünü çəkdiyi insanlar onun qohum-əqrəbasıdır. İstər ata, istərsə də ana tərəfindən olan qohum-əqrəba bir-birinə qahmar çıxmalı, bir-birinin sevincinə və qəminə şərik olmalıdırlar: "Həqiqətən Allah (Quranda insanlara) ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara (haqqını) verməyi (kasıb qohum-əqrəbaya şəriətin vacib bildiyi tərzdə əl tutmağı buyurur" (8, Nəhl, 90). Qurani-Kərim "Sılət ər-rəhm" adlandırdığımız əqrəbalıq tellərini qorumağı əsil müsəlmanlığın əlamətlərindən biri kimi vəsf edirsə, bu əlaqənin mühümlüyünə laqeydlik göstərən və onu qulaq ardına vuranları "xüsrana uğrayanlar", yer üzündə pozğunluq törədənlər", "cəhənnəmə gedənlər" adlandıraraq pisləyir: "O kəslər ki, Allahın birləşdirilməsini əmr etdiyi şeyləri birləşdirir (qohumluq əlaqələrini qoruyub-saxlayır, möminlərə hörmət edir) Rəbbindən və (qiyamət günü çəkiləcək) pis haqq-hesabdan qoruyarlar" (8, Rəəd, 21).

Evlənmə müqaviləsi və onun hüquqi nəticələri - Bir fiqh istilahı olaraq "nikah" sözü ilə ifadə edilən evlənmə müqaviləsi bir-birləri ilə evlənmələrinə hüquqi baxımdan bir maneə olmayan bir kişi ilə bir qadının uzun müddətli bir həyat ortaqlığı qurmaq üzrə aralarını birləşdirən və bununla əlaqədar qarşılıqlı hüquq və öhdəliklər nəzərdə tutan bir əlaqə vasitəsidir. Bu halda bir evlənmə müqaviləsinin meydana gələ bilməsi üçün aşağıdakı ünsürlərin mövcud olması zəruridir:

- Müxtəlif cinsiyyətlərdən olan iki tərəf, yəni evlənmək, nikah imkanları daşıyan və evlənmələrinə heç bir maneə olmayan bir kişi ilə bir qadın arasında gerçəkləşə bilər: "Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə öz cinsinizdən zövcələr xəlq etməsi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir" (8, Rum, 21).

- Birgə yaşamağa hər iki tərəfin razılığı. Tərəflər belə bir müqaviləyə səmimi qəlbdən razı olmalı, onları yalnız ötərgi cinsi yaxınlıq həvəsi yox,

həyatın ağrısını-acısını öz aralarında bölüşdürmək əzmi birləşdirməlidir (8, Bəqərə, 187);

- Davamlılıq; Ailə uzun müddətli birgə həyat üçün nəzərdə tutulmalıdır.

- Hüquqilik. Bu müqavilə hüquq orqanları tərəfindən etibarlı sayılmalıdır. Yuxarıdakı şərtləri özündə daşıyan bu ideal evlilik müqaviləsinin hüquqi mahiyyəti nədir? Digər sözlə demiş olsaq, evlilik iki iradənin bir nöqtədə birləşməsində ifadə edilən bir mədəni hüquq müqaviləsidir, yoxsa onun mahiyyəti daha qəliz və mürəkkəbdir? İslamın nikaha baxışı və fəqihlərin əsərlərinin təhlili nikahın sadəcə bir müqavilədən daha mühüm bir şey olduğunu sübut edir. Quran nikah müqaviləsini "misaq qəliz" (mürəkkəb məramnamə) kimi dəyərləndirmiş, yüzə yaxın ayəsini ailə hüququ məsələlərinə həsr etmiş, Peyğəmbər onu özünün sünnəti olaraq təqdim etmişdir: "Bu nikah xəbərini ətrafa yayan, onu məscidlərdə gerçəkləşdirin və nikah münasibətilə dəfləri çalın" hədisi nikah mərasiminin sadə bir hadisə olmadığını göstərir. Buna görə də bəzi fəqih alimlər ailə hüququ məsələlərinin incələndiyi "kitabən-nikah" bölümünü ibadət məsələləri ilə hüquq məsələləri arasında yerləşdirirlər. Evliliyin hökmünə gəlincə onun insan nəslini davam etdirmək vəzifəsini nəzərə alaraq onu "hər kəs üçün vacib olan vəzifə" (fərz kifayə) elan etmişlər.

Evlənmək; müqəddəm əlaqələr görüşmə-Həyat boyu bərabərlik məqsədilə bir araya gələn insanların bir-birini görmədən, bir-birini tanımadan evlənmələri yol verilməzdir. Tərəflərin bir-birini tanımadan gerçəkləşən evlilik ailə qurumunun öhdəsinə düşən ülvi qayələri həyata keçirə bilməz. Bunu nəzərə alan islam hüququ əvvəldən kişi ilə qadının bir-birlərini görməyini və hətta onların görüşməsini caiz buyurmuşdur. Peyğəmbər bir qadınla evlənmək istəyən Müğirə bin Şüübədən onu görüb-görmədiyini soruşur. Onu görmədiyini bildikdə deyir: "Get, onu gör. Çünki bu irəlidə bir-birinizə isinişməyiniz üçün ən yaxşı vasitədir (22,9/ən-nikah). Başqa bir hədisində Peyğəmbər demişdir: Bir qadınla evlənmək istədiyiniz zaman onun qadınlıq keyfiyyətlərinə baxın (12,16/ər-rada). Hədislərin kişilərə müraciət etməsi baxmağa ancaq kişinin haqqı olduğu haqda səhv fikrin formalaşmasına gətirib çıxarmamalıdır. Evlilik qarşılıqlı razılığa əsaslanan bir müqavilə olduğuna görə qadın da nəyə razılıq verdiyini bilməlidir; bu qadının təbii haqqıdır. Evlənməyi nəzərdə tutulan qadının bədəninin hansı yerlərinə baxmağın mümkünlüyü haqda fəqih alimlər müxtəlif fikirlər söyləyirlər. Bəzi fəqihlərin fikrincə, onun əllərinə və üzünə baxmaq kifayətdir. Evlilikdən əvvəl görüşmək məsələsinə gəlincə, bu görüş üçüncü şəxsin nəzarəti altında baş tutmalı, görüşənlər başlı-başına buraxılmamalı, bu görüş kimsəsiz yerlərdə baş verməməlidir. Peyğəmbər belə görüşlərin acı nəticələrindən xəbərdar edərək demişdir Sizdən kim Allaha və axirət gününə inanırsa yanında məhrəm adamı olmayan qadınla baş-başa qalmasın. Çünki bunu edərsə üçüncüsü şeytan olur (18, 26).

Nişanlanma-Nikah müqaviləsinin bağlanmasından əvvəl baş verən bu mərasim bir-birlərini görüb bəyənmiş iki tərəfin bir-birinə evlənməyi vəd etməsidir. Bir kişi ilə bir qadın gələcəkdə bir-birilə evlənəcəklərini dilə

gətirməklə nişanlanmış olurlar. Nigahdan qabaq belə bir aralıq vəziyyətin şəriətə uyğun hesab edilməsində məqsəd irəlidə ailə quracaq iki tərəfin bir-birini tanıması və doğru qərar qəbul edə bilməsi üçün fikirləşmək fürsəti verməkdir.

Nişanlanma, daha sonrakı bir zamanda gerçəkləşəcək evlilik haqqında bir vəd olduğu üçün onu nikah ilə qarışdırmaq lazım deyildir. Nişanlı qadınla nişanlı kişi nikah bağlanıncaya qədər bir-birinə yabançıdırlar. Onlar bir-biri üçün halal sayılmırlar. Nişanlanma mərasimi tərəflərə evlənmək məcburiyyəti yükləmədiyindən hər an pozulma ehtimalına açıqdır Bu baxımdan, nişan və nikah bir-birindən asılı olmayan, müstəqil mərasimlərdir. Söz kəsmə, şərbət içmə, mehr və onun miqdarı ətrafında danışıqlar kimi adət-ənənələrə əsaslanan mərasimlərin gedişində yalnız kişinin kimlərlə nişanlana biləcəyi və bu nişanın pozulmasından doğa biləcək nəticələr məlum olur. Digər tərəfdən, ülvi bir qayəyə xidmət etdiyindən nişanın buna zərurət olmadığı hallarda pozulması da təqdir olunmur. Bununla belə, hər iki tərəf nişanı pozmaq səlahiyyətinə malikdir. Nişan pozulduğu anda tərəflər bir-birindən müstəqil hala gəlirlər və nişanlılıq zamanında bir-birinə verilən şeyləri geri qaytarırlar.

Toy mərasimi-Yeni bir ailənin qurulmasını adətən bir bayram kimi qəbul edən Peyğəmbər bu münasibəti xüsusi olaraq qeyd etməyi məsləhət görərdi. Yetim qalmış bir qızı böyütmüş və ərə vermiş hz. Aişəyə Peyğəmbər belə deyibmiş: "Ey Aişə Sizin bir əyləncəniz yoxdurmu? Axı ənsarlar əyləncəni xoşlayırlar. Gəlinlə birlikdə dəf çalıb şarkı söyləyəcək bir cariyə göndərmədinizmi?" (8, nikah/21).

Mabəd əl-Qeysi toyunda Peyğəmbər bəyin yanına gələrək "Bir əyləncə varmı?" deyə soruşmuşdu. Görkəmli səhabələrdən olan Müaz bin Cəbəl isə bunu rəvayət etmişdir: "Peyğəmbər ənsarlardan birinin toyunda imiş. Qısa bir çıxış etdikdən sonra nikahı bağladı və ülfət, xeyir, bərəkət və uğur üzrə qardaşımızın başı üzərində dəf çalın. Gənc qızlar içərisində Badam və şəkər olan məcməyiləri onların qarşısına düzdülər. Oradakılar geri durub əllərini məcməyilərə uzatmadıqda Peyğəmbər "götürün" deyə buyurdu" (11, 230).

Evlənmə müqaviləsinin məzmunu və şərtləri- Evlənmə müqaviləsinin bağlanması və qüvvəyə minə bilməsi üçün bir sıra şərtlər mövcud olmalıdır. Hüquqi dildə bu şərtlər "iniqad şərtləri" adlanırlar. Bu ünsür və şərtlər aşağıdakılardan ibarətdir:

1. Tərəflər, evlənmə əhliyyəti, Qəyyumun razılığı və evlilikdə vəkalət.

Yeni evlənənlər və onların qəyyumları və ya vəkilləri evlənmə müqaviləsinin ən mühüm ünsürləridir. Evlənmə əhliyyətinə malik olan və evlənməyinə heç bir maneə olmayan şəxs evlənmə iniqadının tərəfdaşı ola bilər. Evlənmə əhliyyəti başqalarının icazəsinə ehtiyac olmadan evlənə bilmək deməkdir. Bunun üçün ruhi və ağıl baxımından sağlam olmaqla bərabər həm də yaşca yetkin olmaq lazımdır. Kiçik yaşlı uşaqlar bu xüsusiyyətdən məhrum olduqları üçün özbaşına evlənə bilməzlər. Bunu ancaq qəyyumunun köməyi ilə edə bilərlər. Əqli xəstələr də ancaq hakimin qərarı və rəsmi qəyyumun icazəsi ilə

evlənə bilərlər. Hənəfi məzhəbinə görə buluğ yaşına çatmış bir qız onun razılığı olmasa heç kim onu ərə verə bilməz. Qızın razılığı olmadan bağlamış nikah müqaviləsi hökm gücünə malik deyildir. Digər sözlə demiş olsaq "Razılığı olmadan subay qız evləndirilə bilməz" (22, 157).

Evlənməyə mane olan amillərin olmaması-Tərəflərin mövcudluğu özü-özlüyündə evlənmənin gerçəkləşməsi üçün kifayət deyildir. Bunun üçün həm də evlənməyə mane olan amillərin olmaması lazımdır. Məhz hansı amillərin evlənməyə əngəl törədə biləcəyini Quran və Sünnə aydın bildirmişdir: "Atalarınızın evlənmiş olduğu qadınlarla evlənməyin! Yalnız keçmişdə (cahiliyyət dövründə) olan bu cür işlər müstəsnadır. Əlbəttə, bu çox pis işdir və (Allahın qəzəbinə səbəb olan) bir yoldur! Sizə analarınız, qızlarınız, bacılarınız, bibiləriniz, xalalarınız, qardaş və bacılarınızın qızları, süd analarınız, süd bacılarınız, arvadlarınızın anaları və yaxınlıq etdiyiniz qadınların himayənizdə olan qızları (ögey qızlarınız) ilə evlənmək haram edildi. (Cihad vaxtı əsir alaraq) sahib olduğunuz (cariyələr) müstəsna olmaqla, ərli qadınları almaq Allahın yazısı ilə sizə haram edildi. Bundan başqaları isə namusla (iffətlə), zinakarlığa yol vermədən, mallarınızı sərf edərək evlənmək üçün sizə halal edildi" (8, Nisa, 22-24). Quran və Sünnəyə görə evlənmə əngəlləri aşağıdakı kimi təsnif olunur:

- Uzunmüddətli evlənmə əngəlləri:

Heç bir vəziyyətdə aradan qalxmayan bu növ əngəllər Quranın açıqladığı kimi üç qrupdur:

Anadangəlmə yaranan qan qohumluğu. Bu qrupa daxil olan əngəllər özünü aşağıdakı dörd dərəcədə göstərir:

- Üsul: Ana, nənə, ata-baba.
- Füru: oğul, qız və onların uşaqları (nəvələr)
- Ata-ananın füruu və onların uşaqları, qardaşlar və qardaşı uşaqları;
- Nənə-babanın furuu: Əmi, xala, dayı, bibi.

Bunların uşaqlarına gəlincə, onlar ikinci dərəcədə olduqları üçün evlənmə əngəllərinə daxil olmurlar;

- Evlənmə səbəbilə meydana gələn qohumluq. Aralarında evlənməkdən doğan bir qohumluq olan (qürabət müşahərə) dörd grup ölüm və ya boşanma ilə sona çatmadığı üçün bir-birləri ilə əbədi olaraq evlənə bilməz:

- Üsulun əri və arvadı, övlad və nəvələrin arvadları, yəni gəlinləri;

Xanımın üsulu, yəni qayınana və nənələr;

Xanımın füruu, yəni ögey qızlar.

İlk üç grupda evliliyin yasaq halına gəlməsi üçün sadəcə nikah müqaviləsinin bağlanmış olması yetərli ikən son qrupda nikahla bərabər həm də cinsi yaxınlığın da olması da tələb olunur. Digər sözlə demiş olsaq, boşanma məsələsi nikahdan sonra cinsi yaxınlıq olmamışkən qalxmışsa, o xanımın bir başa kişidən olan qızı ilə evlənmək mümkündür. Ancaq cinsi yaxınlıq olmuşsa artıq ögey qızlarla heç bir halda evlənmək olmaz (8, Nisa, 23). "Qan qohumluğundan bir-birinə haram olanlar süd qohumluğundan da haram olurlar. Yuxarıda xatırlanan hədisdəki şərtin hikmətini aydınlaşdırmağa çalışsaq süd

ümumiliyinə görə haram olan qohumlar haqqında belə deyə bilərik: süd əmən uşağı süd əmizdirən xanım öz uşağı kimi qəbul etdiyindən uşaq o ailədən kimlərlə evlənə bilməzsə süd əmən uşaq da eyni adamlarla evlənə bilməz.

Süd anası, süd bacısı, süd xalası, süd bibisi belə adamlardır (2, 96). Mövcud fikirlərin əksəriyyətinə görə burada əmilən südün miqdarı rol oynamır.

Keçici evlənmə əngəlləri-Bu növdən olan əngəllər bəzi hallarda aradan qalxa bilir və beləliklə, əvvəllər bir-biri üçün haram sayılan şəxslər evlənə bilirlər. Belə əngəllər altı cürdür:

- Din fərqi. Müsəlman kişi və ya müsəlman qadın müşriklərlə evlənə bilməzlər (8, Bəqərə, 221). Müşrik, Allahdan başqa saxta ilahlara tapınan, Ona şəriklər qoşanlardır. Müsəlman bir qadın kitab əhlindən olan bir qeyri-müsəlmanla da evlənə bilməz. Ancaq müsəlman kişi kitab əhlindən olan bir qadınla evlənə bilər. Çünki ailənin başçısı ata olduğu üçün islamın üstünlüyü və doğulacaq uşağın gələcəyinə təminat verilmiş olur. Din fərqi keçici bir əngəldir.

- Üç kərə boşama. Xanımı ilə üç dəfə boşanan bir kişi artıq onunla evlənə bilməz. Ancaq o qadın başqa bir kişi ilə evlənib, təkrar boşanaraq, ya da ikinci əri ölərsə o zaman ilk əri ilə təkrar evlənə bilər (8, Bəqərə, 228-229).

- İddəyə (gözləmə müddətinə) görə evlənmə əngəli, Evlənmənin boşanma, ölüm və ya fəsh səbəblərindən biri ilə sona çatması halında qadın bəlli bir "iddə" müddətini gözləməlidir (8, Talaq, 4). Bu gözləmə müddəti ərzində qadın evlənə bilməz.

- Qadının başqası ilə evli olması. Bir qadının eyni zamanda birdən artıq kişi ilə evlənməsi haram buyurulduğundan evli bir qadınla nikah bağlamaq olmaz (8, Nisa, 3). Qadın mövcud əri tərəfindən boşanmadıqca, ya da əri ölmədikcə bir başqası ilə evlənə bilməz.

- Çoxarvadlılıqla əlaqədar evlənmə əngəli. İslam eyni zamanda ən çoxu dörd qadınla evli olmağı caiz buyurduğundan beşinci xanımla evlənmək olmaz (8, Bəqərə, 228).

- Arvadın qohumu olmaq: birdən artıq evliliklə əlaqədar olan bu əngəl eyni zamanda iki qohumun bir nikah altında birləşə bilməyəcəyini nəzərdə tutur. Eyni zamanda iki bacı ilə evlənmək kimi.

Evlənmə barəsində istəyin bəyan edilməsi və onun şərtləri - Evlilik müqaviləsinin üçüncü ünsürü tərəflərin evlənmək istəyinin bəyan edilməsidir. Evlənmənin baş tutması üçün tərəflər anlaşıqlı tərzdə öz iradələrini bəyan etməlidirlər. İslam hüquqçularını "iycab" (ilk təklif) və "qəbul" (ilk təklifə görə müsbət cavab və ya rədd adlandırdıqları iradə bəyanı vəkillərin vasitəçiliyi ilə də gerçəkləşə bilər. Bəyanın qüvvəyə minməsi üçün aşağıdakı şərtlər zəruridir: İycab və qəbulu tərəflər eşidiləcək və anlaşılacaq tərzdə, arada fasilə vermədən, ardıcıllıqla ifadə etməlidirlər.

- İradə bəyanında işlədilən ifadələr edilən işin bir evlənmə müqaviləsi oluğunu açıq şəkildə göstərməlidir;

- İycab və qəbul bəyanları gecikdirici bir şərtlə bağlı olmamalı, dərhal yetirilməyə hazır olmalıdır.

Evlənmə müqaviləsinin doğruluğu şərtləri-Evlənmə müqaviləsinin hüquqi tələblərə tam cavab verə bilməsi üçün bir sıra şərtlərin mövcudluğu zəruridir. Bunlar aşağıdakılardır:

- Şahidlərin mövcudluğu. Evliliyi zinadan fərqləndirən amillərdən biri açıq-aşkarlıqdır. Evlilik açıq-aşkar, zina isə gizli və qapalı olur. Evliliyin açıqlığı da şahidlər tərəfindən həyata keçirilir. Buna görə nikah müqaviləsi əqli və ruhi sağlamlığa malik olan, həddi-buluğa çatmış və müsəlman olan iki kişi cinsindən olan şahidin və yaxud bir kişi və iki qadın şahidin hüzurunda həyata keçirilməlidir (11, 9/48).

Evlilikdə razılıq və seçim imkanının olması-Hənəfi məzhəbi istisna olmaqla hüquqçuların əksəriyyəti məcburiyyət və zor altında bağlanan nikah müqaviləsinin möhkəm olmayacağını bildirirlər. Hz. Aişənin ötürdüyü bir xəbər bu fikrin mühümlüyünü bir daha vurğulayır: "Ənsarlardan olan Hişam bint Hənsa Hz.Aişəyə gəlib "Atam ailə şərəfini artırmaq üçün məni qardaşı oğlu ilə evləndirdi. Mən belə bir evliliyi istəmirəm" dedi. Hz. Aişə ona Peyğəmbərin gəlişini gözləməyi buyurdu. Peyğəmbər gəlincə Aişə durumu ona anlatdı. O da qızın atasını çağırdı və ona seçim haqqı verdi. Bu zaman qadın "Ya Rəsulallah, mən atamın təklif etdiyi nikah müqaviləsini qəbul etdim. Ancaq belə davranmaqla qadınlara atalarının evlilikdə belə bir hərəkətin olmadığını göstərmək istədim" dedi (17, 21).

Evlənmə müqaviləsinin tətbiqi (nəfaz) şərtləri-Quruluş (iniqad) və keçərlilik (sihhət) şərtlərinin təsdiqi üçün hüquqən varlıq qazanan bir evlilik müqaviləsi bəzən bir sıra nöqsanlarına görə tətbiq gücünə malik olmur. Müqavilənin tətbiq qüvvəsi qazanması üçün lazım olan şərtlərə nüfuz şərtləri deyilir. Tərəflərin və ya qəyyumların rəyləri alınmazsa müqavilə tətbiq qüvvəsinə malik olmaz.

Evlənmə müqaviləsinin bağlayıcılıq (lüzum) şərti və ərlə-arvad arasında "kifayət" məsələsi-Mövcud olmadığı təqdirdə müqavilənin fəshini tələb edən şərtlərə bağlayıcı (lüzum) şərtlər deyilir. Evlənmə müqaviləsi öz təbiəti etibarilə əsasən bağlayıcı bir müqavilədir. Yəni tək tərəfli qaydada pozula bilməz. Bununla belə, islam hüququ bəzi qurumlarda müqavilənin lazım olmadığı və tərəflərin bəlli şərtlər daxilində bunu poza biləcəyini hökmə bağlamışdır. Bu durumlardan ən önəmliləri belə sıralanmışdır. Əqli salamat olan və həddi buluğa çatmış bir xanım qəyyumunun icazəsini almadan və qeyri-münasib bir kişi ilə evlənmişsə xanımın qəyyumu onların tay olmadığını əsas tutaraq müqaviləni fəsh edə bilər. Yuxarıdakı məsələdə kişi qadına tay hesab olunur. Lakin onun verdiyi mehr əmsaldan az olarsa qəyyum mehrin əmsaldan olduğunu əsas götürərək nikah müqaviləsini fəsh edə bilər. Bu iki maddədə kifayət kimi görünən münasiblik dini, sosial və iqtisadi sahələri əhatə etməlidir. Hədislərin birində deyilir: Üç şeyi əldən qaçırma: vaxtı çatmış namazı, hazır olduğu halda cənazəni və sənə tay olan qızı" (21, 123). Doğrudan

da bır-birinə tay olan qohumlar və evlənən gənclər bir-birlərini daha yaxşı başa düşür, onların arasında isə anlaşılmazlıqlar daha az özünü büruzə verir. Fəqihlər evlənən gənclərin hansı cəhətlərdən bir-birləri ilə tay olmalarını müəyyən etməyə çalışaraq aşağıdakı sahələri qeyd edirlər:

- Dindarlıq;
- Gözəl əxlaq sahibi olmaq;
- İqtisadi və sosial-mədəni inkişaf səviyyəsi;

Evlənməkdə münasiblik qadından daha çox kişidə yaranır. Belə ki kişi özünə tay olmayan bir qadınla evlənə bilir, amma qadın özünə tayı olmayan bir kişi ilə əsla evlənməz. Əgər evlənərsə qəyyumun bu müqaviləni fəsh etmək hüququ vardır. Əgər bu müddət ərzində qadın hamilə qalarsa qəyyumun bu haqqı aradan qalxmış olar.

Keçərlilik baxımından evlənmə müqaviləsinin növləri – Evlənmə müqaviləsi quruluş, keçərlik, yürürlük və bağlayıcılıq şərtlərini tam və ya əksik olduğuna görə müxtəlif növlərə ayrılır. Mötəbərlik baxımından isə nikah müqaviləsi səhih, fasid, batil, məyquf və qeyri-lazım şəklində təsnif edilir. Aşağıda bu növlərin hər biri haqqında məlumat verməyə çalışacağıq.

Səhih evlənmə müqaviləsi. Bu, ünsür və şərtləri tam həcmdə mövcud olan bir müqavilədir. Heç bir əyər-əskiyi olmayan bu evlilik müqaviləsi evliliyin bütün hüquqi nəticələrini doğurur. Buna əsasən cinsi əlaqələri qura bilir, qadın alimentə və mehrə haqq qazanır, ərlə arvad arasında evlənməkdən doğan qohumluq meydana gəlir, uşaqların nəsəbi sabit olur və qarşılıqlı mirasçılıq cərəyan edir.

Fasid evlənmə müqaviləsi - Quruluş şərtləri tam olmaqla bərabər keçərlilik şərtlərinə bir əngəli olan evlilik müqaviləsi fasiddir. Məsələn, şahidsiz və ya zorla bağlanmış müqavilə fasid sayılır. Fasid evlənmə halında tərəflərin evlilik həyatı sürmələri caiz deyildir. Əksinə, onlar dərhal ayrılmalıdırlar. Əgər onlar özləri ayrılmasalar ədliyyə qurumları onları güclə ayırar və bu evliliyə xitam verərlər. Ərlə arvad arasında cinsi yaxınlıq olmadıqda isə fasid evlilik heç bir hüquqi nəticə verməz. Yox, cinsi yaxınlıq olmuşsa bu aşağıdakı nəticələr doğurar:

- mehrin orta əmsalı ilə tərəflər arasında qəbul olunmuş mehrdən hansı az isə qadın ona haqq sahibi olur;
- evlənməkdən doğan qohumluq gerçəkləşir;
- əgər ayrılma baş vermişsə gözləmə müddəti ərzində aliment müəyyənləşdirilir.

Batil evlənmə müqaviləsi və muta nikahı-Quruluş şərtlərində bir nöqsanı olan müqavilə batil evlənmə müqaviləsi adlanır. Bir-birləri ilə evlənməyinə bir maneənin olduğu iki nəfərin evlənməsi, uşaqların ya da əqli xəstənin evlənməsi kimi. Nöqsan evlənməyin başlıca ünsürlərində olduğundan belə müqavilə heç bir mahiyyət və ya hüquqi qüvvə daşımır. Ərlə arvad arasında cinsi yaxınlığın olub olmaması da burada heç bir nəticə vermir. Tərəflərin dərhal bir-birindən ayrılması lazımdır. Onlar öz xoşları ilə ayrılmasalar, onları hakim ayırar . Digər

tərəfdən, məsələ mehr, aliment, nəsəb, gözləmə müddəti (iddət) və miras məsələlərində də deyildir. Yalnız Əbu Hənifə əgər aralarında evlənmə yasağı olanlar evlənmişsə doğulacaq uşağın atasız qalmaması üçün bu evliliyi batil yox, fasid hesab etmişdir (16, 2/16).

Batil evlənmə müqavilələrindən biri də "muta nikahı" adı ilə tanınan müqavilədir. Evlənmələri hüquqən caiz olan kişilərin müəyyən məbləğ müqabilində bir müddət özlərinin cinsi imkanlarından yararlanmaq məqsədilə həyata keçirdikləri evlənmə müqaviləsi muta nikahı adlanır.

Səhabələrin əksəriyyətinin və dörd fiqh məzhəbinin fikrincə bu müqavilə batildir (13, 216).

Peyğəmbərin muta nikahına münasibətini aşağıdakı hədislərdən görürük. Hz. Əlinin bildirdiyinə görə, peyğəmbər Xeybər savaşının sonlarında əhliləşmiş uzunqulaq ətini yeməyi haram buyurmuşdur. Ey insanlar! Mən sizə qadınlarla muta nikahı bağlamağa izn vermişdim. Şübhəsiz, Allah bunu qiyamətə qədər haram qılmışdır. Kimin yanında muta nikahı ilə bir qadın varsa buraxsın (16, 346).

Məuquf və qeyri-lazım evlənmə müqaviləsi-Quruluş (iniqad) və keçərlilik (sihhət) şərtləri tamam olmaqla bərabər əməli tətbiqi şərtlərində əksiklik olan nikah müqaviləsi məuqufdur. Məsələn, ağlı başında amma hələ baliğ olmamış adamın bağladıq evlənmə müqaviləsi qəyyumların izn verməsinə qədər məuqufdur.

"Məuquf' istilahı ilə keçərlilik haqqı qazanmaq üçün başqasının izni və ya rəyi tələb olunan müqavilə nəzərdə tutulur. Məsələn, ağlı başında olan lakin hələ həddi-büluğa çatmamış yeniyetmələrin bağladıqları evlilik müqaviləsi qəyyumların icazəsi və ya rəyi alınana ədər məuqufdur. Yəni dayandırılmışdır. Belə müqavilələr ona icazə və ya rəy verilənə qədər "fasid" nikah hökmlərinə tabedir (16, 46).

Digər şərtləri tamam olduğu halda bağlayıcılıq şərtlərində əksiklik olan evlənmə müqaviləsinə də "Qeyri-lazım" yəni bağlayıcı olmayan evlənmə deyilir. Məsələn, ağlı başında olan və həddi buluğa çatmış bir qadının qəyyumundan icazəsiz olaraq "öz tayı olmayan" birisi ilə bağladığı evlilik qeyri-lazım nikah sayılır. Çünki evlənənlərin arasında münasibliyin olmaması qəyyuma müqaviləni fəsh etmək haqqı verir.

Beləliklə, islam ailə təsisatına təkcə cəmiyyətin ən kiçik birlik şəkli kimi deyil, həm də bu birliyi tənzimləyən hüquqi hökmlər üzərində qərar tutan və ərlə arvadın və uşaqların hər birinin öhdəsinə məsuliyyətlər qoyan bir ictimai qurum kimi yanaşır. Müsəlman ailəsinin üzvləri öz aralarında mürəkkəb və çoxsaylı hüquq və öhdəliklər məcmusu ilə bağlıdır. Bu hüquq və öhdəliklər sosial və maddi xarakter daşıyır. Lakin onlar ümumilikdə ailə üzvlərinin və cəmiyyətin rifahına və çiçəklənməsinə, cəmiyyətdə yüksək əxlaqi-mənəvi dəyərlərin hökm sürməsinə və son nəhayətdə, insanların səadətinə yönəlmişdir.

## ƏDƏBİYYAT

1. Abdullayev H. İslam dini haqqında. Bakı: Azərnəşr, 1958, 118 s.
2. Əliyev R.Y. Dinin əsasları. Bakı: İrşu Hənifad, 2003, 268 s.
3. Əliyev R.Y. Islam. Bakı: Irşad, 2000, 375 s.
4. Əlizadə Ə.Ə., Abbasov A.H. Ailə. Bakı: Maarif, 1989, 252 s.
5. Heydəroğlu Hacı Arif. Müxtəsər Elmihal. Bakı, 2003, 450 s.
6. Həmidullah Məhəmməd. Islama giriş. Bakı: Qismət, 2006, 336s.
7. İslam təhriflərə cavab. Bakı: Azərbaycan Dövlət kitab palatası, 1997, 133 s.
8. Qurani Kərim. Ərəb dilindən tərcümə edənlər Z.M.Bünyadov; V.M.Məmmədəliyev. Bakı: Qismət, 2004, 607 s.
9. Qəmbərov X. Qurani-Kərimdə bioloji fikirlər. Bakı, 2009, 67 s.
10. Lətifi Sirus. Islamın iki əsas mənbəyi: Quran və sünnə / Konfrans materialları. Bakı: İİR-nin Azərbaycandakı Səfirliyinin Mədəniyyət Mərkəzi, 2006, s.141.
11. Məhəmməd Əli Razi. Quranın elmi ecazkarlığı. Bakı, 2009, 237 s.
12. Məmmədəliyev V.M. Quran və elm. Bakı: Qismət, 2006, 128 s.
13. Məmmədəliyev V.M. İslam. Qısa məlumat kitabı. Bakı: Azərnəşr, 1985,162 s.
14. Ansiklopedik büyük islam ilmihali. Istanbul: Cağaloğlu, 1979, 713 s.
15. Bilmen Ömer Nasuhi. Büyük islam ilmihali. Istanbul: Şenyıldız, 1997, 536 s.
16. Büyük din və islam ansiklopedisi. İstanbul: Taan mat, 1964, 480 s.
17. Belvinarlı Ali Kamal.İslam prinsipleri. İstanbul: Nedve yay, 1973, 239 s.
18. Çökmenoğlu Huseyn Tekin. Islamda şahsiyyet hakları. Ankara: TDV yayınları, 1996, 153 s.
19. Аль-Аттас С.М.Накиб. Концепция обучения ислама. Коала Лумпур: ISTAS, 1990, 290 с.
20. Баранов Х.К. Арабско-русский словарь. М.: Русский язык, 1962, 1186 с.
21. Грюнебаум. Р.Е. Классический ислам. Очерк истории. М: Наука, 1986, 215 с.
22. Гразневич П.В. Происхождение ислама. Донецк, 1980, 156 с.
23. Ислам: Энциклопедический словарь. М., 1991, 315 с.
24. Керимов Г.М. Шариат и его социальная сущность. М.: Наука, 172 с.


## ПОНЯТИЕ «СЕМЬИ» И ЕЕ ПРАВОВАЯ СУЩНОСТЬ В ИСЛАМЕ


**С.Г.МИРЗОЕВА**


## РЕЗЮМЕ


Все правовые, нравственные и моральные ценности общества берут свое начало, прежде всего, с создания семьи. Если принять во внимание, что основной задачей правовой системы является обеспечение внутренней жизни общества, роль семьи как стержня общества в этом процессе проявится со всей ясностью. Тема семейного права в исламе была представлена широкой общественности и систематизирована в источниках под названием «брак и развод», позже «мунакахат и муфарагат», а в последние века – «настроение человека» и «заповеди семьи». В статье находят свое отражение такие темы, как брачный контракт в исламе и его правовые основы, обоюдное согласие обеих сторон на совместное проживание, содержание, прочность и условия брачного контракта, долговечность семьи, брак, обручение, преграды на пути к браку. Семья показана не только как самая малая форма общества, но и как общественная организация, налагающая ответственность в отдельности на мужа, жену и детей.



**Ключевые слова:** семья, права человека, ислам

# THE “FAMILY”NOTION AND ITS LEGAL ESSENCE IN İSLAM

**S.H.MIRZAYEVA**

**SUMMARY**

All legal, moral-values of society originate,first of all,from the family establishment. İf we take into account that the main task of the legal system is provision of internal life of society,the role of the family as the core of society in this process will be obvious. The theme of Islamic family law was initially presented to the masses and systematized in the sources under the names of “marriage” and “divorce”, later as “munakahat” and “mufaragat”, and in last centuries as “the mood of a human” and “commandments of the family”. The article reflects such themes as the marriage contract in Islam and its legal basis, mutual agreement of both sides to live together, strength and durability of family, marriage, engagement, the content and conditions of the marriage contract, obstacles on the way to marriage. The family is shown not only as the least form of society, but also as a social organization, imposing liability individually on husband, wife and children.

**Key words:** family, Human Rights, Islam